# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ FİTONSİDLİ BİTKİLƏRİN POTENSİALI VƏ İQTİSADİ ƏHƏMİYYƏTİ

**Vüsalə Əhmədli**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzi, vusale_ehmedli76@mail.ru*

Son araşdırmalara görə, Qarabağ ərazisində çox sayda fitonsidli, qida, vitaminli, boya, yem əhəmiyyətli və s. faydalı bitkilər vardır. Onlardan üskükotu, göyəm, əzgil, yemişan, çiçəkbahar kimi dərman bitkiləri, eləcə də sumax, qara batbat, zirinc, çaytikanı kimi fitonsidli bitkilər qeyd oluna bilər. Bildiyimiz kimi, fitonsidli bitkilərdən və onlardan hazırlanmış həlim və cövhərlərdən bir çox sahələrdə, o cümlədən üzvi tərəvəzçilikdə, göbələk, bakterial xəstəliklərin, zərərvericilərin müalicəsində, orqanik preparatların hazırlanmasında istifadə olunur. Hazırda regionda nəsli kəsilməkdə olan bəzi fitonsidli bitkilərin toxumlarının reintroduksiyası üzrə tədqiqatlar aparılır.